2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Fuad Cavadovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 fevral 2025-ci il tarixli 38 saylı müraciət üzrə

# RƏYİ

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 67 saylı Sabirabad seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Zərbalıyeva Pərvanə Bəybala qızı 2025-ci il fevralın 6-da teleqramla Mərkəzi Seçki Komissiyasına (bundan sonra- Mərkəzi Seçki Komissiyası) müraciət edərək dairə seçki komissiyasının 2025-ci il 5 fevral tarıxlı 53/191 saylı qərarını mübahisələndirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən ekspert qrupunun üzvü Fuad Cavadov həmin müraciəti araşdırarkən aşağıdakıları **müəyyən etdim:**

67 saylı Sabirabad seçki dairısindən Kürkəndi bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd P.B.Zərbalıyeva müraciətində səsvermə günü həmin seçki dairəsi dairə seçki komissiyasının Kürkəndi bələdiyyəsi hüdudlarında yerləşən seçki məntəqələrində seçkinin nəticələrinin saxtalaşdırıldığını iddia etmişdir.

Araədırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, əlavə materiallar təqdim etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, lakin o Komissiyanın iclasında iştirak etməmişdir.

İddia edilən pozuntu ilə əlaqədar olaraq qeydə alınmış P.B.Zərbalıyevanın şikayəti 67 saylı Sabirabad seçki dairisi dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 2025-ci il 5 fevral 53/191 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma ilə əlaqədar dairə dairə seçki komissiyasından müvafiq sənədlər, həmçinin P.B.Zərbalıyevanın təqdim etdiyi materiallar alinaraq icraat materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Aparılmış araşlırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə üzrə müvafiq seçki subyektlərindən, o cümlədən, səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesını müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış lakin seçilməmiş namizədlər tərəfindən verilmiş izahatlar və P.B.Zərbalıyevanın təqdim etdiyi materiallar araşdırılarkən iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Araşdırma nəticəsində belə qənaətə gəlinmişdir ki, Kürkəndi bələdiyyəsini əhatə edən 22 və 23 saylı seçki məntəqələrində səsvermə prosesi, səslərin sayılması, seçki sənədləri ilə işin aparılması Seçki Məcəlləsi ilə müəyyən olunan tələblərə uyğun şəkildə həyata keçirilmiş, məntəqə seçki komissiyaları tərəfindən səsvermənin nəticələrinə dair protokollar həmin Məcəllədə nəzərdə tutulmuş qaydada tərtib edilərək müvafiq seçki dairəsinin dairə seçki komissiyasına çatdırılmışdır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, dairə seçki komissiyası qeydə alınmış namizəd P.B.Zərbalıyevanın şikayıtini araşdırarkən düzgün hüquqi nəticəyə gəlmişdir.

Qeyd edilənlər əsas götürülərək, 67 saylı Sabirabad seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Zərbalıyeva Pərvatə Bəybala qızının müraciəti əsassız oldugundan təmin edilməməli və dairə seçki komissiyasının 2025-ci il 5 fevral 53/191saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112.1-ci maddələrinə əsasən **rəyə gəldim:**

1. 67 saylı Sabirabad seçki dairəsindən Kürkəndi bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Zərbalıyeva Pərvanə Bəybala qızının 2025-ci il 6 fevral 38 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 2025-ci il 5 fevral 53/191 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət edən şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                        Fuad Cavadov